# Ulu Öndər müstəqilliyimizi daimi və dönməz etdi




Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Layihə çərçivəsində**

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

**28 May Müstəqillik Günü Azərbaycan xalqının tarixində ən əlamətdar günlərdən biridir. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı XX - əsrin əvvəllərində öz arzusuna qovuşdu. Şərqdə ilk dəfə olaraq, demokratik, dünyəvi dəyərlərə əsaslanan müstəqil respublikanın yarandığı bütün dünyaya bəyan edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə oldu.**

**"Əsgər Ailəsi Cəmiyyəti" Vətənpərvərliyin Təbliği İctimai Birliyinin sədr müavini Mikayıl Həsənli Azərbaycan Xalq Cümhuriyyətinin Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirərək yeni bir dövlət və cəmiyyət nümunəsi olduğunu deyir:**

"İlk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdı. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. İlk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıdı. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi təmin edilmişdi".

**Mikayıl Həsənli 1991-ci ilin oktyabr ayında Azərbaycan xalqının XX əsrdə ikinci dəfə öz müstəqiliyini elan etdiyinə diqqət çəkdi. Bildirdi ki, 1918-ci ilin mayından 70 il keçəndən sonra Azərbaycan xalqı yenidən ayağa qalxdı, öz haqqını, azadlığını, müstəqilliyini və bütövlüyünü tələb etdi:**

"XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Həmin dövrdə yenidən hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü. Ulu Öndər ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Bununla da dahi şəxsiyyət Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu".

**Mikayıl Həsənli Ulu Öndər hakimiyyətə gələndə çox çətin və məsuliyyətli bir dövr olduğunu vurğulayaraq əlavə etdi ki, dahi şəxsiyyət, ilk növbədə, diqqəti dövlətçiliyin qorunub saxlanmasında böyük əhəmiyyətə malik olan milli birliyin yaradılması və yeni cəmiyyət quruculuğu prosesinə yönəltdi:**

"Bu məsələdə ideoloji faktorun rolunu düzgün dəyərləndirən Ulu Öndər azərbaycançılıq məfkurəsini cəmiyyətdəki bütün etnosların və konfessiyaların maraqlarını ödəyəcək, ideoloji yarğanlara bölünmüş Azərbaycan cəmiyyətini birləşdirəcək ideya-siyasi struktur kimi irəli sürdü. Azərbaycançılığı təbliğ etməkdə Ulu Öndərin məqsədi yaşadığı məkandan asılı olmayaraq, hər bir azərbaycanlıya, soydaşımıza vətənpərvərlik hissini, tarixi torpaqlarımıza, dilimizə, mədəni irsimizə, dövlət rəmzlərimizə məhəbbət aşılamaq idi".

Müstəqillik dövründə Heydər Əliyev öz nəzəri-ideoloji baxışlarını inkişaf etdirərək sistem halına salmış və azərbaycançılıq ideyasını irəli sürərək onun əsas prinsiplərini müəyyənləşdirmişdir. Heydər Əliyev azərbaycançılığın tarixi-siyasi əhəmiyyəti barədə demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik".

**Mikayıl Həsənli azərbaycançılıq ideologiyasının müstəqil dövlət quruculuğu, milli inkişaf, xalqımızın vahid amal uğrunda mübarizəyə səfərbər edilməsi, habelə ölkəmizdə yaşayan müxtəlif xalqların, etnik qrupların və dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət və etimad mühitinin yaradılması, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanmasında və həmrəyliyinin təmin olunmasında böyük rol oynadığını vurğuladı:**

"Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə vətənimizdə yaşayan şəxsləri deyil, həmçinin bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Heç şübhəsiz ki, Ulu Öndərin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda görülən işlərin və əldə edilən nailiyyətlərin sayını biz istənilən qədər artıra bilərik. Lakin yalnız sadalananlar da onu deməyə əsas verir ki, müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi".

**Mikayıl Həsənli bu gün ümummilli lider Heydər Əliyevin layiqli davamçısı olan Azərbaycan Prezidenti cənab İlham Əliyevin də dünya azərbaycanlılarının təşkilatlanması məsələsini daim diqqət mərkəzində saxladığını və bu sahədə dövlət siyasətini uğurla həyata keçirdiyini dedi:**

"Azərbaycan Prezidenti cənab İlham Əliyev xarici ölkələrə səfərlərində dünyanın müxtəlif bölgələrində məskunlaşmış həmvətənlərimizlə görüşüb, diaspor quruculuğu işinin vəziyyəti ilə yaxından maraqlanıb, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması üçün lazımi tədbirlər görübdür. Biz



bu istiqamətdə aparılan tədbirlərin müsbət nəticəsini 44 günlük Vətən müharibəsində gördük. Cənab Prezident soydaşlarımızın dəstəyini yüksək qiymətləndirərək demişdir: "Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur". İkinci Qarabağ müharibəsindəki tarixi ədalətin zəfər çalmasında hər bir soydaşımız əlindən gələni əsirgəmədən yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin dünyaya çatdırılması istiqamətində yorulmadan fəaliyyət göstərdi. Məhz həssas bir dönəmdə Diasporla İş üzrə Dövlət Komitəsi və xaricdə yaşayan azərbaycanlılar üzərilərinə düşən ikiqat məsuliyyəti dərk edərək, öz vəzifə borclarını böyük fəxarət və qürurla yerinə yetirdilər. Soydaşlarımız məqsədyönlü fəaliyyətləri ilə Azərbaycan reallıqlarının dünyaya çatdırılması istiqamətində mühüm işlər gördülər. Onlar şanlı Qələbəmizi böyük qürur hissilə yaşadıqları ölkələrin kütləvi informasiya vasitələrində müxtəlif dillərdə bütün dünyaya yaymağa çalışdırlar. Bu, ölkəmiz üçün çox vacib məqamlardan idi və həmvətənlərimiz bunun öhdəsindən layiqincə gəlməyi bacardılar".

*Elnurə İSAXAN*